# Əlilliyi olan şəxslərin hazırladıqları xalça nümunələrinin sərgisi

Beynəlxalq Əlillər Günü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyinin birgə təşkilatçılığı ilə bir qrup əlilliyi olan şəxsin hazırladıqları xalça nümunələrinin sərgisi təşkil olunub.

Tədbirdə iştirak edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov əlilliyi olan şəxslərin sosial müdafiəsi və reabilitasiyasının, onlara ictimai həyatın bütün sahələrində iştirak imkanları yaradılmasının Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosial inkişaf kursunda başlıca komponentlərdən olduğunu vurğulayıb.

Ölkə qanunvericiliyində əlilliyi olan şəxslər üçün bir sıra güzəşt və imtiyazların təsbit olunduğunu qeyd edən S.Müslümov bildirib ki, buna misal olaraq, əlilliyə görə əmək pensiyasının baza hissəsinin məbləği yaşa görə əmək pensiyasının baza hissəsinin məbləğinin I qrup əlillərə 120 faizi, I qrup gözdən əlillərə isə 200 faizi həcmində müəyyənləşdirilib. Əmək münasibətləri və məşğulluq sahəsinə dair normativ-hüquqi aktlarda da əlilliyi olan şəxslərə humanist yanaşmaları əks etdirən bir sıra güzəşt və əlavə təminatlar əksini tapıb: "Əlilliyi olan şəxslər dövlət tibb müəssisələrində büdcə vəsaiti hesabına pulsuz ixtisaslı tibbi xidmətdən istifadə etmək, güzəştli şərtlərlə apteklərdən dərman almaq, sanator-kurort müalicəsi ilə təmin olunmaq hüquqlarına malikdirlər. Digər tərəfdən, onların təhsil alması və peşə reabilitasiyası üçün lazımi şəraitin yaradılmasına dövlət tərəfindən təminat verilir və ölkədə inkluziv təhsil sistemi fəaliyyət göstərir". S.Müslümov əlilliyi olan şəxslərlə bağlı aparılan işlərdə Heydər Əliyev Fondunun fəal dəstəyini qeyd edib.

"Bizim daim xüsusi diqqət yetirdiyimiz məsələlərdən biri də əlilliyi olan şəxslərin bacarıq və qabiliyyətlərinin, yaradıcılıq imkanlarının cəmiyyətə təqdim olunması və dəstəklənməsidir. Bu məqsədilə nazirlik tərəfindən hər il ümumrespublika səviyyəli tədbirlər keçirilir və təkcə son üç ildə təşkil olunan belə tədbirlərdə 1700 nəfərdən çox əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq əhatə olunub", deyə, qeyd edən nazir vurğulayıb ki, əlilliyi olan şəxslər arasında tətbiqi sənət növlərində də istedad və bacarığı ilə seçilənlər az deyil: "Beynəlxalq Əlillər günü ilə əlaqədar nazirlikdə əlilliyi olan şəxslərin hazırladıqları xalça nümunələrinin nümayiş etdirilməsi də həmin insanların yaradıcılıq imkanlarının təbliğinə, maddi və mənəvi dəstəklənməsinə xidmət edir".

"Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyinin sədri Mirzə Məmmədvəliyev bildirib ki, rəhbəri olduğu təşkilat Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Milli xalçaçılıq sənətinin inkişafı və əlillərin məşğulluğu üçün Peşə Emalatxanasının yaradılması" layihəsini icra edir. Layihə çərçivəsində Sumqayıt şəhərində və İsmayıllı rayonunda bir qrup əlilliyi olan şəxsə milli xalçaların toxunması və bərpası üçün lazımi avadanlıqlar verilməklə, onların məşğulluğu dəstəklənib. Layihə üzrə həmçinin tanınmış xalçaçı rəssamlar tərəfindən onlara müvafiq təlimlər keçilib, xalçaçılığın sirləri onlara aşılanıb. Hazırda təqdim olunan xalçalar da həmin əlilliyi olan şəxslərin əl işləridir.

Sərgidə nümayiş olunan xalça nümunələri tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**M.KAMAL.**